*AEMA Filologiya və sənətşünaslıq, 2025, № 2* *ISSN 2663-4368*
*Səhifə: 143-153* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2025.2.143*

# Azərbaycan folklorunda mədəni qəhrəmanın problemi (əcdad kultu kontekstində)

**Zümrüd Mənsimova**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA-nın İctimai Elmlər Bölməsi
zumrudibrahimqizi@gmail.com
ORCID ID: https://orcid.org/0000-0002-8529-9018

**Annotasiya:** Məqalədə mədəni qəhrəmanı əcdad kultuna bağlayan, yaxınlaşdıran və ayıran cəhətlər tədqiqata cəlb olunmuşdur. Burada əsas məqsədimiz ilkin əcdad kultu əsasında mədəni qəhrəmanların davranışlarını, onların mədəniyyətdə norma müəyyənləşdirici modelini öyrənmək və sistematik şəkildə Azərbaycan folkloru materialları əsasında araşdırmaqdır. Eyni zamanda məqalədə mədəni qəhrəmanı əcdad kultunun törəmələri ilə eyniləşdirən cəhətlər müəyyənləşdirilir.
**Açar sözlər:** Əcdad kultu, mədəni qəhrəman, ata-baba, milli dəyər, Oğuz xan, adətlər

**Məqalə tarixçəsi:** göndərilib – 26.09.2025; qəbul edilib – 22.10.2025

# The problem of the cultural hero in Azerbaijani folklore (in the context of ancestor cult)

**Zumrud Mansimova**

**Abstarct:** In the article, the aspects that connect, bring closer and separate the cultural hero to the ancestor cult are involved in the research. Here, our main goal is to study the behavioral models of cultural heroes based on the primary ancestor cult, their norm-determining model in culture and to systematically investigate it based on Azerbaijani folklore materials. Aspects that identify the cultural hero with the descendants of the Ancestor cult are identified.
**Key words:** Cult of ancestors, cultural hero, ancestors, national value, Oghuz Khan, customs

**Article history:** received – 26.09.2025; accepted – 22.10.2025

## Giriş / *Introduction*

Azərbaycan folklorunda mədəni qəhrəman və onun əcdad kultu ilə bağlı oxşar və fərqli xüsusiyyətləri, onları birləşdirən, yaxınlaşdıran və ayıran cəhətlər bir sıra baxımdan maraq doğurur.

Folklorumuza, xüsusən, miflərə, dastanlara nəzər yetirsək, qəhrəman əcdad obrazını bir çox hallarda mədəni qəhrəman, elin başçısı, xalqı arxasınca çəkib aparan, onlara yaşamağın yollarını öyrədən sərkərdə, el oğlu, məclisləri açan, rəhbərlik edən, savaşı kəsən, barış yaradan əcdad – atalıq funksiyalarını həyata keçirən müqəddəs və hörmətli şəxs kimi görürük. Mədəni qəhrəmanda olan həm atalıq, böyüklük, alilik, humanistlik, yol göstərənlik, doğru yola çəkmək, uzaqgörənlik, xalqın qeydinə qalmaq, rifahını yaxşılaşdırmaq kimi yüksək ali dəyərlər əcdadla bir təmas yaradır. Əcdad dediyimiz həm nəslin, soyun yaradıcısı, həm elin müdrik ağsaqqalı, həm də xalqa yaşamağın yollarını öyrədən, mədəni qəhrəmandır. Azərbaycan folklorunda mədəni qəhrəman problemini araşdıran ayrıca fundamental tədqiqatlar olmasa da,

müəyyən araşdırmaların tərkibində özünəməxsus yer almışdır. Belə ki, Fidan Qasımova "Türk mifologiyasında mədəni qəhrəman problemi" adlı kitabında bütün türk xalqlarında bu məsələdən geniş bəhs etmiş, Seyfəddin Rzasoy, Füzuli Bayat, Ramazan Qafarlı, Aynur Fərəcova və başqaları da müəyyən qədər toxunmuşlar.

**Əsas hissə / *Main part***

Mədəni qəhrəmanlar dünya nizamının təşkil olunmasında müxtəlif adətləri, qanunları ortaya qoyur, nizamlayırlar. İnsanların evlənmə, ev qurmaq, yaşayış tərzlərinin formalaşması, müxtəlif peşələrə sahiblənmə modellərini, müxtəlif döyüş texnologiyaları ilə tanış olma kimi xüsusiyyətləri yaradır və bunları özlərindən sonrakı davamçılara öyrədirlər. Mifoloji düşüncəyə görə sonrakı insanların hər biri öz fəaliyyətlərində ilkin əcdadın davranışlarını imitasiya edir, təkrarlayır və bu mənada, mərasim və davranışların hər biri ilkin əcdadın dünya nizamının yaranmasından bəri qoyduğu davranış formalarının davam etdirilməsi xarakteri daşıyır. Burada əsas məqsədimiz ilkin əcdad kultu əsasında mədəni qəhrəmanların davranışları, onların mədəniyyətdə norma müəyyənləşdirici modelini öyrənmək və sistematik şəkildə ilk dəfə olaraq Azərbaycan folkloru materialları əsasında araşdırmaqdır. Mədəni qəhrəmanın funksiyası tarixin müxtəlif dövrlərdə nəsil başlayan, ilk yaradıcı, törədici əcdadlarla bağlıdır. Məsələn, yakut türklərində mifoloji personaj olan Ər-Soqotok yakutların ilkin əcdadıdır. Bahəddin Ögəl xalq qəhrəmanlarını da mədəni qəhrəman kimi götürür.

Mədəni qəhrəmanların funksiyalarına gəlincə onlar yaradılış və quruculuq, cəmiyyətin inkişafı prosesində yaxından iştirak edirlər.

"Tanrı tərəfindən göndərilən Ər-Soqotok Qara xanın canını almaq istəyən, cəhənnəmin sahibi olan Buura Dohsunla vuruşur və həm ölkəni, həm də Qara xanı bu cəhənnəm zəbanisinin əlindən xilas edir. Burada da mədəni qəhrəmanın xilaskarlıq xüsusiyyəti özünü göstərir [5, s. 111-121].

Biz mif və dastanlarda bəzən əcdad kultunun nümayəndəsinin eyni zamanda mədəni qəhrəmana xas xüsusiyyətlərə malik olmasını izləyirik. Bəzən isə mədəni qəhrəmanın ayrı-ayrı müdrik qocaların simasında və əməllərində təzahür olunduğunu görürük.

Fidan Qasımova bir çox müəlliflərin fikirlərini əsas tutaraq bildirir ki, *ilkin əcdadlar eyni zamanda tez-tez özlərini mədəni qəhrəman kimi də göstərir, mədəniyyətin, hətta təbiətin rifahı yollarını tapırlar. Daha arxaik mədəniyyətlərdə də mədəni qəhrəmanlar təqribən həmişə ilkin əcdad, fratrial və qəbilə əcdadlarıdır. Belə ki, mədəni qəhrəmanın daha arxaik nişanələri əcdad kultunda daha qədimdən təzahür etmişdir. Hər ikisi bir-birindən ayrılmazdır. Müəllif sonuc olaraq belə qənaətə gəlir ki, olar ki, arxaik mifologiyalarda ilk əcdad – demiurq ilə mədəni qəhrəman təsəvvürləri qovuşuq şəkildə olub, sinkretik olaraq ayrılmazdır. Əcdad nəslin yaradıcısı olduğu kimi, eyni zamanda mədəni fəaliyyətlə də məşğul olur. Mədəni qəhrəmanın fəaliyyətinin əsas tərəflərindən biri də məhz bu və ya digər xalqın nəslinin yaradıcısı olmasıdır. Bütün bunlar əsasında da əcdad və mədəni qəhrəmanın fəaliyyəti bir-birini tamamlayır və biri digərinə keçə bilir* [6, s. 93]. Maraqlıdır ki, müəllif bəzi məqamlarda əcdadla mədəni qəhrəmanı birləşdirir, eyniyyət təşkil etdiyini bildirir. Bəzən isə onların birinin digərindən ayrıldığını vurğulayır. Ancaq Azərbaycan miflərinə, toplama materiallarına diqqət etsək, əcdad yaradıcılıq, eli el etmək, arxasınca çəkib aparmaq və s. xüsusiyyətlərə sahib olmaq baxımından mədəni qəhrəman funksiyalarını da özündə birləşdirir. Yəni əcdad dediyimiz Oğuz xaqan, Dədə Qorqud, Nuh, Xıdır bir sıra baxımdan özündə mədəni qəhrəmanın funksiyalarını ehtiva edir. Bəzən dastanlarımızda xaqanların, el qəhrəmanlarının yanında müdrik qoca obrazları olur ki, onlar birbaşa çətin yolu asanlaşdırmaq, məsləhət vermək, müəyyən kəşflər etməklə ordunu, sərkərdəni xilas etmək bacarığı baxımdan mədəni qəhrəman səviyyəsinə yüksəlirlər. Məsələn, Oğuzu daima çətin anlardan qurtaran Uluq Türk və İrkıl xoca kimi müdrik qoca obrazları birbaşa mədəni qəhrəmanı simvolizə edirlər. Uluq türk mədəni qəhrəman qismində insanlar üçün lazım olan yaşayış qaydalarını, onlardan

istifadə üsullarını daha da asanlaşdırır, öz ordusunu dəfələrlə təhlükələrdən xilas edir.

Mədəni qəhrəman əcdad kultu vasitəsi ilə reallaşır. Bu baxımdan bizə məlum olan Oğuz Xanın, onun Nuha qədər olan şəcərəsinin timsalında mədəni qəhrəmanlara xas olan qurmaq, yaratmaq, eli el etmək, xilas etmək, yaxşı güzəranın yollarını tapmaq kimi mühüm və faydalı xüsusiyyətlərə təsadüf edilir. Necə ki, Nuh peyğəmbər dünyanı su basanda böyük gəmi hazırladıb camaatı gəmiyə yığaraq xilas edir. Burada Nuh həm əcdad kultunun nümayəndəsi kimi özünü tanıdır, həm də yaratmaqla, kəşf etməklə, qurtuluş yolunu tapmaqla mədəni qəhrəman funksiyasını yerinə yetirmiş olur.

Bəzən Azərbaycanda xaqanlıq institutunun təsisinin, dövlətçilik tarixinin başlanğıcının Nuh tufanından sonraya təsadüf etdiyini bilavasitə Nuh əleyhissalamın adı ilə bağlayırlar. Bəxtiyar Tuncay bu barədə geniş məlumat verir. “Türklər əslində 20 boydur. Onların hamısının boyu Nuh peyğəmbərin oğlu Yafəsə, Yafəsin oğlu türkə qədər uzanır” [1, s. 48].

Alban tarixçisi Musa Kağankatlı “Alban tarixi” kitabında Yafəsin soyu və bu soyun hakimiyyəti altında olan torpaqlar barədə çox maraqlı məlumatlar verir.

Azərbaycan ərazisində mövcud olmuş ilk türk dövləti Aratta dövlətinin Şummer dövləti ilə yaxın əlaqələri olduğu bildirilir. “Yafəsin oğulları budur: Homer (Kimer) – hamirlər (kimmerlər) onun nəslindəndirlər...” Oğuz Xaqanın Uyğur variantında Oğuz xanın nuh nəslinin davamçısı olduğu işarət edilir [9, s. 21-26].

Bütün miflər xalqın keçdiyi tarixi yol əsasında meydana çıxır. Bu, bütün dünya xalqlarında müxtəlif formalarda özünü göstərir. Azərbaycan folklorunda, miflərimizdə isə soy, kök, nəsil şəcərəsi, ilkin əcdadlar, onların həyata keçirdiyi funksiyalar haqqında kifayət qədər məlumatlar əldə etmək mümkündür. Azərbaycan mifləri, əfsanələri də əvvəldən sona xalqımızın keçdiyi tarixi yoldan, ata-baba ruhuna ehtiram əlaməti olaraq qədim yurd yerlərinə bağlılıqdan, sonsuz məhəbbətdən xəbər verir. Əcdad-qəhrəman, əcdad-soy-kök, əcdad-varəsə, əcdad-ağsaqqal və s. bunların ətrafında ümumiləşən müdriklik, uzaqgörənlik, yol göstərənlik, ucalıq, hörmət kimi ali dəyərlər ayrı-ayrı miflərdə, rəvayət və əfsanələrdə özünü qoruyub saxlamışdır. Əcdad həmişə cəmiyyətin önündə gedən, sözünü xalqa çatdırıb, xalq tərəfindən qəbul edilən, hörmətlə qarşılanan, xalqın dərdinə şərik çıxan, problemlərini həll edən, onlara yaşayışın, güzəranın asan yollarını axtarıb tapmaqda yardımçı olan bir müqəddəs şəxs kimi elin gözündə mədəni qəhrəman statusunu qazanmışdır. Mədəni qəhrəman dediyimiz yaradıcılıq, kəşf etmək xüsusiyyəti, eli el etmək bacarığı ilə əcdad kultunun daşıyıcısı hesab olunur. Əcdad və mədəni qəhrəmana Azərbaycan folklorunda 2 qisimdə təsadüf olunur:

1. Əcdad kultunun nümayəndəsi həm də mədəni qəhrəman statusunu özündə ehtiva edir.
2. Mədəni qəhrəman ayrıca bir xətt olaraq ayrılır.

Əcdad-mədəni qəhrəman məsələləri ilə bağlı şimal bölgəsindən topladığımız bir folklor mətninə diqqət edək:

“Vaxtıyla Kimmer xaqanın Kutriqur və Utiqur adlı iki oğlu varıymış. Holara yaşadığı ərazi az gəliydi. Yeni və yaxşı, münbit ərazilər axtarışında idilər. Günlərin birində bu iki uşax ov etməyçün çölə gediylər. Ov axtardıxları vaxı marala rast gəliylər. Ho vaxlar maralda boz qurd kimi müqəddəsdi. Maral qaçıy, uşaxlar qovuylar və bir də gölün kənarına gəlif çatıylar. Uşaxlar maralı nizə ilə sıxışdırıf vurmax istədıxda, maral dənizə atılıf üzmağa başdıyı. Uşaxlar da üzə-üzə maralın dalınca gediylər. Maral qabaxda, uşaxlar da arxasında sahilə çıxıylar. Uşaxlar quruya ayax basan kimi maral yoxa çıxıy. Baxıylar ki, havralar çox mənzərəli münbit yerlərdi. Horda özlərinə yurt salıylar. Ardınca bütün tayfanı çəkif gətiririylər. Yaxınlıxdakı dağdan dəmir əldə edif dəmirçiliyi öyənif ovçulux əşyaları düzəldif ov ovlayırlar. Hər mahalda bir qardaş öz yaxınlarıyla yaşamağa başdıyı və nəsil artıylar [4].

Şimal bölgəsindən topladığımız bu mətn həmin yerin tarixi, burada yaşayıb məskunlaşan tayfalar haqqında dolğun məlumat verir. Bildiyimiz kimi, tarixi mən-bələrdə “Zaqatala” adının Sak, Massaget və Kimmer tayfalarına bağlılığı, haqqında müxtəlif məlumatlar, tarixi faktlar vardır. Yaranmış folklor nümunələrində yer-yurd adları, ulu babaların mifik düşüncə tərzi, hardan gəlib harda məskunlaşmaları boy verir.

Digər tərəfdən də, mətndə onun əcdad və mədəni qəhrəmanlığı bir-biri ilə bağlı şəkildə

təqdim edilmişdir. Bu mifdə həm soy-kök haqqında informasiya var, həm də qardaşları xalqı rahat yaşamağın yollarını axtarıb tapan mədəni qəhrəman kimi tanımış oluruq. Biz bu mifdə "Ərgənəkon" və "Oğuz xaqan" dastanlarının elementlərini də görürük. Məsələn, "Ərgənəkon" dastanında dağı bir Boz qurdun önə düşüb yol göstərməsi ilə, dəmirçinin bacarığı ilə dəlib yeni dünyaya qədəm qoyan Göy türklər özlərinə yeni dünya nizamı qururlar.

"Ərgənəkon" dastanında Türklərin əsrlər boyu yaşadığı ərazidən çıxmaq üçün yol göstərən boz qurd oldusa, uca dağı əridib onları həmin dəlikdən çıxardan isə dəmirçi olur. Dəmirçi ilk əcdadların yaşayışını müvafiq qaydada təmin edir. Onlara yaşamaq üçün lazım olan avadanlıqları verir. Folklorşünas alimlər bu obrazın mifologiyada odla bağlı olduğunu bildirirlər. "*Mifologiyada demiurq kimi təzahür edən personajlardan biri olan dəmirçi personajına nəzər salaq. Dəmirçi personajı mifologiyada odla bağlı, demiurq funksiyasına malik, fövqəltəbii yaradılış gücü ilə seçilən bir obrazdır. O, allahlardan birinin köməkçisi, mədəni qəhrəman və yaxud əcdaddır. Dəmirçi nəinki müxtəlif metallardan istənilən alətləri, hətta qəhrəmanların sehrli silahlarını da (toppuz, qalxan, qılınc və s.) yarada bilər* (10, s. 21, s. 189). Dəmirçi burada mədəni qəhrəman kimi ayrıca bir xətt təşkil edir.

Deməli, burada boz qurd dar gündə türkün yol göstərəni, dəmirçi isə mədəni qəhrəman funksiyasını yerinə yetirir. Oğuz Xaqanın xalqlara səkləb, qıpçaq, kaqarluk, xalaç kimi ad verməsi, adət-ənənələri müəyyənləşdirməsi, dövlətin strukturunu təyin etməsi, nizamı tənzimləməsi, yemə-içməni qaydaya salması və s. onun mədəni qəhrəmanlıq funksiyasına aiddir.

Y.M.Meletinski qeyd edir ki*, ilk əcdad, mədəni qəhrəman və demiurq obrazlarını vahid obraz kompleksinin tərkib hissəsidir. İlk əcdadlar qəbilə və tayfaların ilk valideyni hesab olunur, onlar qəbilə icmasını bir sosial qrup kimi modelləşdirirlər. Müəllif mədəni qəhrəmanlar haqqında yazır ki, bunlar insanlar üçün müxtəlif əşyaları (odu, mədəni bitkiləri, əmək alətlərini) əldə edən, yaxud yaradan, insanlara ov etməyin, torpaq becərməyin qaydalarını, sənətkarlığı, incəsənəti öyrədən mifoloji personajlardır. Onlar sosial və dini qaydaları, mərasimləri və bayramları, nikah qaydalarını və s. müəyyənləşdirirlər* [11, s. 638].

İlk əcdad, ata-baba dediyimiz həm ailənin, həm elin, həm nəslin, həm geniş mənada xalqın yol göstərəni, ağ günə çıxaran kəslərdir. Onların ucalıq və böyüklük statusu evi, eli və xalqı əsarətdən, köləlikdən, qurtarır, xalqa yaxşı yaşamağın yollarını aşılayır. Mifik qəhrəmanın ilkin funksiyalarından biri də budur ki, ilk qəbiləni, eləcə də xalqı törətməlidir. Törətdiyi insanlar üçün asan yaşamaq qaydaları formalaşdırmalı, öz qaydalarını qurmalı, adətlərini bəlli etməli, onların sağlam yaşayışı üçün ilk əşyaları, ilk ov alətlərini və s. kəşf etməlidir. Məhz bu xüsusiyyət ilk əcdadın mədəni quruculuq fəaliyyətinə aiddir. Əcdadın bu mədəni quruculuq fəaliyyətinə görə biz onu artıq mədəni qəhrəman adlandırırıq. Söhbət konkret olaraq Oğuz xaqana, Dədə Qorquda, Qazan xana, Koroğluya gəlincə onlar tayfanın, elin rifahını düşünən, onların yaşayışı üçün müəyyən şərait yaradan kəslərdir. Hətta Qazan xanın ildə bir dəfə öz evindən çıxıb elinə evini həvalə etməsi, evini yağmalatması acları doydurmağa yol açırdı. "*İlk əcdad, həm mədəni qəhrəman, həm də xilaskardırlar. Belə ki, bütün oğuzlar Oğuzdan törəyir. Bu, onun ilk əcdad funksiyasıdır. O, daha sonra yaratdığı (törətdiyi) cəmiyyəti nizama salır, bu onun mədəni quruculuq funksiyasıdır*" [3, s. 27].

Maraqlıdır ki, mədəni qəhrəman kimi tanıdığımız əcdadlar sonrakı böyük nəsillərin yaranışına səbəb olur. Bu gün həmin nəsillər, həmin tayfalar bu günkü Azərbaycan xalqının xalq kimi formalaşmasında böyük rol oynamış, tarixdə böyük iz qoymuşlar. Maraqlıdır ki, xalqımız hər zaman istər dar günündə, istərsə də şad günündə ulu baba sözünü, ata öyüdünü yada salmış, onların qoyduğu yolu, verdiyi öyüdləri çox zaman bir örnək bilmişlər. Necə ki Ergənəkonda 400 il ömür sürəndən sonra daha böyük ərazilərdə məskunlaşmaq istəyən türklər oradan çıxmaq üçün çox düşünüb-daşınmış, sonda qərara gəlmişlər ki, atalarından eşitdikləri yerlərə gedib nəsil artırsın, torpaqlarını böyütsünlər. *"Atalarımızdan eşitdik, Ergənəkonun xaricində geniş yerlər, gözəl yurdlar var imiş. Bizim yurdumuz əskidən o yerlər imiş. Dağların arasında bir yol tapıb buradan köçək, oralara gedək"* [15]. Xalqımız öz xaqanının, ona dar gündə ar-

xa-dayaq duran liderinin ətrafında həmişə sıx birləşmiş, böyüyə hörmət baxımdan başqa xalqlara nümunə olmuşlar. Oğuz Xaqanlar, Dədə Qorqudlar, Koroğlular, Babəklər, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə kimi maarifçi, uzaqgörən şəxsiyyətlər yetişdirən xalqımız əsrlər keçsə də, müdrik ağsaqqal sözünü dəyərdən salmamışdır. Onlar dedikləri sözün qüdrəti ilə mədəni qəhrəman, həm də müdrik ağsaqqal hesab edilmişlər. Burada diqqət çəkən əsas məqam əcdad kultu nümayəndəsinin sosiumda mədəni qəhrəman kimi özünü tanıtması və əcdad səviyyəsinə qədər ucalmasıdır.

Elin ağsaqqalı, elin böyüyü, yol göstərəni öncə öz gücünü, qəhrəmanlığını göstərir, sonra isə elin ağsaqqalı, elin atası statusunu qazanır. Əcdad kultunun nümayəndəsi səviyyəsinə yüksəlmək birbaşa müdriklik, uzaqgörənlik, güc və qüvvət tələb edir. Kübra Yıldız Altın "Türk kültüründe atalar kültü" araşdırmasında bildirir ki, mədəni qəhrəman və ata əlaqəsinə gəlincə *türk mədəni dünyasında ata olmaq üçün öncə mədəni qəhrəman adı qazanmaq lazımdır. Yalnız mədəni qəhrəman adı qazanmaqla ata-əcdad səviyyəsinə yüksələ bilər. Müəllif belə nəticəyə gəlir ki, hər mədəni qəhrəman ata olmazkən, hər ata mədəni qəhrəman keyfiyyətlərinə sahib olur. Məsələn, Oğuz Xaqan, Ural Batır kimi arxaik qəhrəmanlıq dastanlarında bunun gerçək olduğunu işarəliyən örnəklər çoxdur* [7, s. 227]. Oğuz xaqanın xalqlara ad verməsi onun birbaşa mədəni qəhrəman funksiyasından irəli gəlir. "Oğuz xaqan" dastanının uyğur versiyasında Oğuz xaqanın Nuh peyğəmbərdən gələn nəsil ağacı – şəcərəsi olduğu göstərilir. Burada da Nuhun oğulları arasında torpaqların paylanmasından hakimiyyəti qorumaq üsullarından söz açılır. Bu, əcdadın həm də mədəni qəhrəmanlığının səviyyəsini aşkar edir. Burada diqqətimizi çəkən iki məqam var. Birincisi, Ulu əcdad və mədəni qəhrəman dediyimiz müdrik qoca ali şəxsiyyətdir. Əcdad və mədəni qəhrəman dediyimiz bəzən bir-birindən ayrılır, bəzən hər iki obraz birinin – ən ali olanın simasında ümumiləşir. Məsələn, Oğuz xaqan bütün yürüşlərdə Yuşi Xocanın müdrik və uzaqgörənliyi sayəsində çətin işin öhdəsindən gələ bilir. Deməli, burada Yuşi Xoca qələbəyə aparan yolun yolçusu, maneələri dəf edən müdrik qoca, orduya doğru yol göstərən xilaskar, rifah halında yaşamağın asan yollarını işarə edən mədəni qəhrəmandır. Həm də kimin hara, necə getmək, nə vaxt getmək lazım olduğunu göstərən müdrik qocadır. Maraqlı haldır ki, mədəni qəhrəmanın digər bir göstəricisi də onun məsləhətləri verərkən sandıq içində – gizlin və qaranlıq məkanda olmasıdır. Azərbaycan folklorunda qaranlıq işıqlı dünyaya aparan yolun açarı, rəmzi kimi dəyərləndirir. Bütün ümidlərə və arzulara çatmaq üçün qəhrəmanlar öncə sınaq üçün qaranlıqdan keçirlər.

Eynən gorda doğulmuş Goroğlu, qaranlıqda sehrli gücə malik olan Qırat və Dürat kimi. Digər tərəfdən o, bütün məsləhətini oğlu Qara Sülüyün vasitəsi ilə Oğuz Xaqana çatdırır. Deməli, görünməzlik, gizlilik, müdriklik və xilaskarlıq mədəni qəhrəman funksiyasına daxil olan xüsusiyyətlərdəndir. Eyni zamanda Oğuz Xaqana gəldikdə isə o, bir sərkərdə, xaqandır. Oğuz Xaqan Oğuz soyunun yaradıcısıdır. Müdrik və qəhrəman sərkərdə, Oğuz elinin böyüyüdür.

Göydən şüa ilə düşən qızla evliliyindən 3 oğlu, ağacın içindən çıxan qızla evliliyindən yenə də 3 oğlu olan Oğuz artıq öz dünyasının, özünəməxsus cəmiyyətin, gələcək Oğuz mənşəli türk xalqının əsasını qoymuş olur. Oğuz xanın mədəni qəhrəmanlıq vəzifələri oğuz cəmiyyətində özünəməxsus qayda-qanunlar yaratmaq, elinin ağsaqqalının müdrik məsləhətləri ilə müəyyən işləri yerinə yetirmək, böyükləri dinləyib hərəkət etmək bacarığı, rəhbərlik etdiyi sosiumun konkret adətlərini müəyyənləşdirmək, sosiumun yaşam tərzini təmin etmək məqsədilə yeni əşyalar düzəltmək, xalqlara ad vermək (məsələn, ona kömək məqsədilə daima yanında olan bir qövmə uyğur adı verir), bəylərə ərgənlərə inanıb səlahiyyət vermək (məsələn, Yuşi Xocanın oğlu Qara Sülüyü bütün ulusun yurdçusu təyin edir), fəth etdiyi əyalətlərin xalqları ilə müdrikcəsinə rəftar etmək bacarığı, onları el eləmək, özü kimi ağıllı insanları dinləyib faydalı məsləhətlərdən yararlanmaq qüdrəti onu mədəni qəhrəman kimi yüksəldir. Aynur Fərəcova qeyd edir ki, "*Oğuz kağan da özünü kağan (xan) elan edir, bəylərə səlahiyyət verir, "Buyan"ı oğuzların damğası, Bozqurdu isə hərb hamisi elan edir. Bundan sonra dünyanı fəth etməyə başlayır. Bütün bu fəaliyyətində o, özünü bir mədəni qəhrəman, alp igid, ilk əcdad kimi göstərir* [3, s. 34]. Oğuz xaqanın günəş

şüası ilə birgə yerə enən və ağacın içindən çıxan qızlarla izdivacından dünyaya gələn 6 oğul övladından onun xalqının yaranması, onun xalqlara ad verməsi, adət-ənənələri müəyyənləşdirməsi və s. ilk əcdad funksiyasına işarə edir. Nəzərə alsaq ki, Oğuzun övladlarını ağacın içindən çıxan və şüa ilə göylərdən gələn xanım dünyaya gətirib, onda demək olar ki, oğuz mədəni kultunda fövqəltəbiilik də vardır. Bu fövqəltəbiilik əcdad kultuna bir az qədimlik gətirir və köklərini mifik qüvvələrə bağlayır, mənşəyini isə tarixin dərin qatlarına soya-kökə aparır. Bu mədəni qəhrəman funksiyasına aiddir. Eləcə də Oğuz kağanın öz ölümünə yaxın Oğuz elini öz övladları arasında bölməsi, böyük arvaddan olan övladlarını Bozoq, kiçik arvaddan olanları Uçoq adlandırması onun ilk əcdad kimi yaradıcılıq missiyasından irəli gəlir. Maraqlıdır, Azərbaycan xalqı 7 arxa nəsil başa vursalar da, ailənin, nəslin qoyduğu qanunlara qarşı çıxmamışdır. Həmişə ulu baba, soy-kök amili əsas kimi götürülmüşdür. Nəslin ulu babasının qoyduğu qadağa kimi qalmış, adətlər nəsildən-nəslə, əsrdən-əsrə ötürülmüşdür. Oğuznamələrdə Oğuz dünyasının yaranması geniş və ətraflı şəkildə təsvir olunmuşdur. Oğuzun sağlığında iki qola ayrılan oğuzlar, onun ölümündən sonra məhz Oğuzun qoyduğu qayda əsasında 24 boydan ibarət vahid sistem kimi təşkil olunurlar. Bu gün də Türkiyənin bir çox ərazilərində nəslin, törənin qoyduğu qanunlar unudulmamış, adətlərdən vaz keçilməmişdir.

Aynur Fərəcova adı çəkilən əsərində Oğuz qövmündən, Oğuz xaqanın oğullarına və onların törəmələrinə verdikləri adlardan söz açır. Apardığı araşdırmada belə bir fikir irəli sürür ki, "Oğuz cəmiyyəti ilk insan Oğuz kağandan yaranır. Oğuz xan doğulana qədər yer üzündə insanlar olsa da, oğuzlar yox idi. Oğuzlar Oğuz xandan yaranmaqla onun xalqıdır. Beləliklə, "Kitabi-Dədə Qorqud" oğuzlarının da ulu əcdadı olan Oğuz kağan ilk əcdad kimi öz cəmiyyətini yaradır. O, oğuzların ilk əcdadı kimi müqəddəsdir. İlk əcdad kultu, onun müqəddəsliyi "Kitabi-Dədə Qorqud" dastanının mənəvi ruhunu təşkil edir. Dastandakı oğuzların mənəvi birliyi, Oğuz dövlətinin əzəmət və qüdrəti ilk əcdad Oğuz xandan gələn milli-mənəvi birlik ideyasına əsaslanır. Oğuz olmaq, ulu əcdad Oğuz xanın yaratdığı xalqdan olmaq bütün oğuzları birləşdirən əsas xətdir. Buradan aydın olur ki, qəhrəmanın öz xalqını yaratması, xalqın ulu əcdaddan törəməsi, sadəcə, bir törəyiş, şəcərə hekayəsi deyildir. Bu hekayə xalqı dağılmağa qoymayan, onu bir edən, var edən, xalq kimi, dövlət kimi təsdiq edən, qoruyan mifoloji məzmunlu ideologiyadır. "Kitabi-Dədə Qorqud" oğuzlarının da milli birliyi, vəhdəti və varlığı ulu əcdad Oğuz xana bağlanır". Oğuzun sonralar bütün türklərin nəsil şəcərəsinə, xalq olaraq genişlənməsinə, inkişafına xidmət edir. Müxtəlif folklorşünas alimlərin fikirlərini ortaya qoyur. Ancaq müəllif doğru olaraq qeyd edir ki, Oğuz elində ilk insan Oğuz xaqandan başlayır. Ancaq buda danılmaz faktır ki, Oğuz yaranana qədər ilk insan tipləri müxtəlif formalarda təzahür olunmuşdur. Onlar öz izini müəyyən adlarla miflərimizdə qoruyub saxlayır. Məsələn, Ağsaq ata obrazı. Bununla bağlı "Oğuz xaqan" kimi oğuznamələr əlimizdə olmasa belə şimal bölgəsindən topladığımız materiallar içərisində buna təsadüf etmək mümkündür. Ağsaq ata da düşmənlərlə döyüşdən sağ-salamat çıxan döyüşçülərə ad verir, önə çəkirdi. Bu da onu mədəni qəhrəman kimi tanıdır və ucaldırdı. *"Atamın atası danışardı ki, havı bizim yerlərdə bir Ağsax ata adlı sərkərdə hökümdar olufdu. Ho vaxlar elinə obasına gələn yadellilləri təmiz qırıf çapıfdı." Diyirlər ho igid saqların böyüyü imiş, dünyanı gəzif gəlif bizim eldə özlərinə yurt edif. Harda duruf, dayanıfsa, dayandığı yerdə bir igidini qoyuf ki, horda yurd salsın, salınmış yurd iyidlərin adlarına bağlı oluf. Adətiymiş ki, Ağsaq ata bütün döyüşçülərini ruhlandırmax məqsədilə döyüşdən qabax simvolik olarax ya kəmər, yaxud da qılınc bağışlardı. Döyüşdən soram isə igidılıx göstərənlərə ad verriymiş"* [18].

Bildiyimiz kimi, kəmər el arasında iradə, dözüm və qüvvət mənalarını bildirir. Qılınc isə birmənalı şəkildə gücü və qorxmazlığı, cəsarəti simvolizə edir. Bir mənada isə qılınc sərkərdəyə sadiqliyi ifadə edirdi. Bunla bağlı xalq dastanlarımızdan, nağıllarımızdan kifayət qədər nümunə gətirmək olar. "Daşdəmirin nağılı"nda düşmənlərin suallarına cavab olaraq oxa qarşı qılınc qoyur. Bununla oxla qarşı tərəfə savaşa başlayacaqlarını bildirirlərsə, Daşdəmir qılıncını düşmənin qarşısına qoyur. Bununla düşməndən qorxmadığını bəyan etmiş olur. Daşdəmirin nağılı [13].

Gənc döyüşçüyə adla yanaşı at, qılınc və kəmər də vermək adəti Altay-Sayan xalqlarının dastanlarında, özbək, qazax, qırğız folklorunda, bütün türk folklorunda geniş təsadüf olunur. Maraqlıdır ki, qılınc bağışlamaq missiyasını yerinə yetirən məhz mədəni qəhrəman funksiyasını yerinə yetirən ərənlər, müdrik qocalar olur. O müdrik qocalar bir elin sərkərdəsi, böyüyü, mədəni qəhrəmanı missiyasını həyata keçirəndirlər. Miflərin böyük əksəriyyətində əsas məsələ insanın yaranması və bu yaradılışda iştirak edən personajlar – mədəni qəhrəmanlar və ilkin əcdadlardır. Çox hallarda ilkin əcdadlar və mədəni qəhrəman biri digərindən ayrılmır və onlar dünyanın yaranması prosesində iştirak edir, insanların rifahı üçün od əldə etməyi, sənətkarlığı, öz tayfalarını demonik qüvvələrdən qorumağı bacarır, qanun və qaydaları müəyyənləşdirir, nizam yaradır. Əgər Prometey yunan mifologiyasında mədəni qəhrəman kimi hansı rola malik idisə, türk mifologiyasında da Oğuz Xaqan həmin rola malik idi.

Fidan Qasımova "Türk mifologiyasında mədəni qəhrəman problemi" adlı tədqiqatında miflərin böyük əksəriyyətində də başlıca məsələ dünyanın və insanın yaranması ilə bağlı olduğunu bildirir. Mədəni qəhrəmanın funksiyasının müxtəlif dövrlərdə nəsil başlayan əcdadlarla bağlı olduğunu qeyd edən müəllif dolayısı ilə də olsa onu əcdad kultu nümayəndəsi ilə eyniləşdirmiş olur.

Müəllif qeyd edir ki, "bu prosesdə iştirak edən əsas personajlar isə ilkin əcdadlar, demiurqlar və mədəni qəhrəmanlardır. Əksər hallarda ilkin əcdadla mədəni qəhrəman personajları üst-üstə düşür, yəni bir personaj kimi çıxış edirlər. Bu personaj dünyanın yaradıcısı funksiyalarını yerinə yetirir: od əldə edir, sənətkarlıq növlərini icad edir, öz qəbilə və ya tayfasını demonik qüvvələrdən müdafiə edir, divlərə, əjdahalara qarşı mübarizə aparır, adət-ənənələr, qanun qaydalar müəyyənləşdirir. Başqa sözlə, o, qəbilənin və ya tayfanın həyatını səhmana salır və tənzimləyir. Məsələn, yunan mifologiyasının ən böyük mədəni qəhrəmanı Prometey, türk mifologiyasının ən məşhur mədəni qəhrəmanı isə Oğuz Xaqandır" [6, s. 8]. Bu qəhrəmanları eyni amal birləşdirir.

Bəzən folklorşünas alimlər Boz qurdu da xilaskarlıq və yol göstərənlik, türk xalqının törəyidicisi kimi bir sıra xüsusiyyətlərinə görə əcdad və mədəni qəhrəman hesab etmişlər. Boz qurd başçı, qoruyucu, ailə başçısı funksiyalarında çıxış edir. Bununla da demək olar ki, türklərdə ailəyə bağlılıq, adət-ənənələri qorumaq bu kult ilə bağlıdır.

Fidan Qasımova Füzuli Bayatın və bir sıra müəlliflərin fikirlərinə əsaslanaraq Boz qurdun xilaskarlıq və yol göstərənlik funksiyalarına əsasən mədəni qəhrəman olduğunu bildirir. Onun fikirlərinə əsasən, bir nəslin, tayfanın başlanğıcını qoymasına, həmçinin xilaskarlıq funksiyasına görə Türk xalqları qurdun Tanrı oğlu olduğunu hesab edərək onu əcdad və bəzən mədəni qəhrəman səviyyəsinə qədər yüksəltmişlər.

Miflərimizdə, dastanlarımızda qəhrəmanın zahiri görünüşünün qurda, aslana bənzədilməsi (Oğuz Xaqanın timsalında), eləcə də oğuz igidinin dilindən soyu-kökünün qurda bağlanması (Oğuz oğlu Basat) faktlarına çox təsadüf edilir. Bütün bunlar digər türk xalqlarında olduğu kimi, Azərbaycan xalqının da totemist görüşləri ilə əlaqədar olaraq yaranmışdır. Azərbaycan xalqı da hər şeydən öncə Boz qurdu oğuz yurdunun qoruyucusu və türkün xilaskarı kimi dəyərləndirir. Qurd azadlığın, cəsarətin, yenilməzliyin simvoldur. Lakin qurd əcdad kultundan daha çox totemçilik dünyagörüşünə məxsusdur. Məhz bu səbəbdən mifik düşüncədə müqəddəs hesab edilmişdir.

Azərbaycan folklorunda mədəni qəhrəman əcdad kultunun çox vacib formalarından biridir. Mədəni mahiyyəti özündə birləşdirən mifik personajlar bu arxetipin daşıyıcısıdırlar. Mədəni qəhrəmanlar insanlar üçün müxtəlif mədəniyyət predmetlərini (odun əldə edilməsi, istehsaləmək vasitələri) əldə edir, sənətkarlığın, əkinçiliyin, ovçuluq sənətinin yollarını aşkar edir, onları sosiuma öyrədir, doğru və ədalətli qanunlar qoyurlar. Bununla da insanlar rahat dolanışığın yollarını tapırlar.

"Oğuz xaqan" dastanında Oğuz xaqanı, "Kitabi-Dədə Qorqud" dastanında isə Qazan xanı həm əcdad kultunun transformativ paradiqması, həm də mədəni qəhrəman kimi görürük. Qeyd edək ki, mədəni qəhrəmana məxsus bütün xüsusiyyətlər elə ilkin əcdada əks olunur. Mədəni qəhrəman olaraq Oğuz xaqan ilk türk dövlətinin qurucusu və ilk türk hökmdarıdır,

xaqanıdır. Onun yanındakı bir müdrik qoca obrazı Uluq Türük mədəni qəhrəman funksiyasını yerinə yetirir. O, dövlət quruculuğu işlərində Oğuz xaqana dəstək olur, düzgün məsləhətlər verir. Əcdad və mədəni qəhrəman probleminə gəlincə isə, Oğuz xan bir mifdə həm yaradıcı funksiyasını yerinə yetirir, oğuz igidlərinə ovçuluq mədəniyyətini öyrədir, həm də vəhşi heyvanlarla vuruşmağın, onlara qalib gəlməyin sirlərini, eləcə də odu asan yolla necə əldə etməyin yollarını başa salır. Bu görkəmdə o həm Oğuz elinin ilkin əcdadıdır, həm də bir sıra xüsusiyyətləri ilə mədəni qəhrəman funksiyasını yerinə yetirmiş olur.

Fidan Qasımova mədəni qəhrəmanın fəaliyyətinin əsas tərəflərindən birini də – məhz bu və ya digər xalqın nəslinin yaradıcısı olmasını qeyd edir. “Bütün bunlar əsasında da əcdad və mədəni qəhrəmanın fəaliyyəti bir-birini tamamlayır və biri digərinə keçə bilir”. Eyni zamanda müəllif belə bir nəticəyə gəlir ki, əcdad arxaik miflərdə mədəni qəhrəman və demiurq kimi təzahür edən başlıca qəhrəmandır. Ümumiyyətlə, arxaik mifologiyada ilkin əcdad-demiurq və mədəni qəhrəman haqqındakı təsəvvürlər qovuşuq şəkildə olub, sinkretik səciyyə daşıyır [6, s. 92].

Lakin Oğuz xaqan, Qazan xan simasında biz həm əcdad kultunu, həm də mədəni qəhrəmanı təsəvvür edə bilərik. Oğuz xaqan əcdadı təmsil etdiyi kimi xalqlara ad verir, onlara rahat yaşamağın yollarını tapır. Bu xüsusiyyət onu ilkin əcdadla yanaşı, mədəni qəhrəman səviyyəsinə kimi ucaldır. Deməli, Oğuz xaqan həm ilkin əcdad kultunu təmsil edir, həm də mədəni qəhrəman funksiyalarını özündə ehtiva edir. Yəni mədəni qəhrəmanı bir-birilərindən ayıran cəhətlərdən daha çox bunları yaxınlaşdıran, birləşdirən eyniləşdirən xüsusiyyətlər üstünlük təşkil edir.

Göytürklərin dövlət quruluşu “əbədi el” hesab edilirdi. Dövlətin başında hakim Aşina nəslindən olan xaqan dururdu. Xaqan hakimiyyəti irsi şəkildə ötürülürdü; ancaq atadan oğula yox, qardaşdan qardaşa və ya qardaş oğluna verilirdi. Xaqan hakim, ali sərkərdə və baş kahin funksiyalarını yerinə yetirirdi. Yunan mifologiyasının ən böyük mədəni qəhrəmanı Prometey, türk mifologiyasının ən məşhur mədəni qəhrəmanı isə Oğuz Xaqandır. Əlbəttə, mifologiyada qəhrəman obrazında çıxış edən başqa arxetiplər, həmçinin fəaliyyət və predmet arxetipləri də vardır (məsələn, möcüzəli doğuluş, at, qılınc, adqoyma və s.) [8, s. 223].

Biz miflərimizdə mədəni qəhrəmanı totem əcdad hesab olunan Boz qurdun yerinə yetirdiyi funksiyalarda görürük. Fidan Qasımova qeyd edir ki, “Totemik əcdadların mənşəyi də, mütəxəssislərin fikrincə, məhz ovçuluq peşəsindən yaranmışdır. Yarı insan, yarı heyvan şəklində olan qədim obrazlar təkcə totemik əcdadların deyil, həmçinin mədəni qəhrəman və demiurqların, bir çox zoomorf və antropomorf tanrı personajlarının da prototipi olmuşlar”.

Ümumiyyətlə, qurdla bağlı belə əfsanələr qədim türk xalqları arasında söylənilir və bunların doğruluğuna inanılırdı. Fidan Qasımova araşdırmalarında bildirir ki, mifologiyada qurd yalnız əcdad deyildir. O, eyni zamanda miflərdə mədəni qəhrəman kimi də diqqəti cəlb edir. M.Uraz qurdun müqəddəs və uğur gətirən bir heyvan sayıldığını bildirmişdir. O göstərir ki, qurd totem qəbul edildiyi, ana, ata olduğu kimi, xilaskar, yol göstərici, qəhrəmanlara köməkçi, şəfqətli, cəsarətli, yaxşılıq edən bir varlıq olaraq tanınmışdır [6, s. 105-106]. F.Bayat qurdu çox yaxşı xarakterizə etmişdir. O göstərir ki, boz qurd mədəni qəhrəman, əcdad-xilaskar, iki dünyanı birləşdirən mediator, ritual-mifoloji səciyyəli hami ruh, nəhayət, döyüşkənlik, qəhrəmanlıq simvoludur [13].

S.A.Tokarev əcdad kultunu dinin xüsusi forması hesab etmiş, türk xalqlarında əcdad kultunun mühüm rol oynadığını qeyd etmişdir [12, s. 261].

Azərbaycan xalqının tarixinə nəzər salsaq görərik ki, bir çox türk tayfaları xalqımızın formalaşmasında yaxından iştirak etmişlər. Türklər tarix boyu köçəri həyatı seçmiş, köç etdikləri ərazilərdə daimi məskunlaşaraq öz yaxınlarından birinə xaqanlıq verərək digər ərazilərə getmişlər. Hər dəfə xoşlarına gələn ərazilərə birini xaqan qoymuş, beləcə bu hal təkrarlanmışdır. Mədəni qəhrəman kimi tanıdığımız həmin əcdadlar isə özündən sonra bir ad qoyub getmişlər.

Folklor materiallarına nəzər salsaq mədəni qəhrəman funksiyasını yerinə yetirən bir çox obrazlara təsadüf etmiş olarıq.

"Ergenekon" dastanında mədəni qəhrəmanın bir neçə tipinə təsadüf edirik. Bir variantda Türklər yaşadıqları, 4 tərəfi dağlıq olan Ergenəkonda çoxalıb artdılar. Oradan çıxıb öz ata-baba yurdlarına – ərazilərinə sahib olmaq istədilər. Aralarından bir dəmirçi çıxıb dağda dəmir mədəni olduğunu bildirir. Dəmiri odun və kömürlə alışdırıb əritməklə həmin ərazidən çıxa biləcəklərini bildirir.

Əcdad kultu ilə birbaşa bağlı olan mədəni qəhrəmanın dünyaya gəlişi, hərəkətləri, gücü fövqəltəbii olur. "Oğuz xaqan", "Dədə Qorqud" dastanlarında, "Koroğlu"nun özündə belə qəhrəmanın simasında bu möcüzəli anları görə bilirik.

"Oğuz xaqan dünyaya gələndə 3 gün anasının südünü əmmir. Dil açıb anasından Allaha iman gətirməyini istəyir. Sonra 1 yaşı tamam olmamış özünə ad qoyur:

*Bu bir yaşında uşaq orda rəvan,*
*Dilə gəlib dedi, Bilin ayan,*
*Adımdır Oğuz – padşahi-hünərvər,*
*Düzünü bilirsiniz hamınız, cəsur ərlər"*

[2, s. 52].

Göründüyü kimi, möcüzəli doğulan mədəni qəhrəman öncə özünə qeyri-adi şəraitdə, hamının gözü önündə, el məclisində ad qoyur. Daha sonra böyüyüb xaqan olunca ayrı-ayrı qəhrəmanların etdikləri əməlisaleh işlər nəticəsində onlara ad verir, sonucda həmin adlar böyük türk xalqların adlarına bağlanır. Deməli, burada Oğuz xaqan özünü sosiuma təqdim edir, ad qoyur və sonra Oğuz eli ilə bağlı düşüncəsini bölüşür, qayda-qanunlar tətbiq edir.

Biz folklor nümunələrinə diqqət etsək görərik ki, əcdad kultu ilə bağlı bütün əcdad hesab edilən qəhrəmanlar, əsasən, aşağıdakı funksiyalarda çıxış edirlər:

– Əcdad kultunun təmsilçisi dövlət başçısı, xaqanlar xaqanı kimi;

– Əcdad kultunun təmsilçisi ağsaqqal baba, ata kimi;

– Əcdad kultunun təmsilçisi qəhrəman ər, ailə başçısı kimi;

– Əcdad kultunun təmsilçisi qəhrəman, elin oğlu kimi;

– Əcdad kultunun təmsilçisi sosiuma fayda verən, yol göstərən müdrik ağsaq-qal kimi;

– Əcdad kultunun təmsilçisi sosiumun inkişafını düşünüb onu irəli aparan müdrik şəxs kimi.

Diqqət etsək görərik ki, Oğuz xaqan yeni torpaqlar fəth etdikcə elinin qəhrəmanlarının göstərdikləri şücaətə görə ad və hədiyyələr, bəylik verir. "Kitabi-Dədə Qorqud" dastanında Dədə Qorqud Oğuz Xaqanın transformativ paradiqması kimi igidlik, hünər göstərmiş el oğullarına ad verir. Oğuz elinin igidləri əcdadların qoyduqları yolla gedirdilər. Qazan xana düşmən kəsilən Alp Aruzun əsiri olan Beyrək ona çörək verən Qazan xana xəyanət etmir, əksinə ona qarşı sədaqətli davranır. Onun Qazan xana dediyi sözlər əslində Oğuz igidinin ona çörək verənə, ona ağsaqqallıq edib yol göstərənə sadiq olmasıdır. Oğuz igidlərini dəyərləndirən cəhətlərdən biri də onların elə, obaya, vətənə sadiq oğul, böyük sözünə, əhdinə sadiq olmaları idi.

Mən Qazanın nemətini çox yemişəm, bilməzsəm, gözumü tutsun!

Qaracıqda Qazlıq atına çox minmişəm, bilməzsəm, tabutum olsun!

Mən Qazana dönük çıxmaram, qəti bilin! ("Kitabi-Dədə Qorqud" dastanı, [14].

Miflərimizi özündə əks etdirib yaşadan "Kitabi-Dədə Qorqud" oğuznamələri ən gərəkli mənbədir. Həm ilkin türk təsəvvürləri, həm də Qafqaz mühitində formalaşıb yunan mifologiyasını belə qidalandıran ən arxaik görüşlər onun içərisində sintez edilir. Bu mənada, "Kitabi-Dədə Qorqud"u Azərbaycan-türk mifologiyasının "İliada"sı, "Odisseya"sı, "Bilqamış"ı, "Riqveda"sı hesab etmək olar. Akademik İ.Həbibbəylinin yazdığı kimi, "Dədə Qorqud daha çox əsatiri-mifoloji varlıq kimi təqdim olunmuşdur. Şübhəsiz ki, burada elmiliklə yanaşı, elm donuna geydirilmiş ideologiyanın da izləri vardır" [4, s. 12].

## Nəticə / *Conclusion*

Deməli, əcdad kultunun daşıyıcıları həm atalıq, böyüklük, ucalıq, müdrikliklə, ağsaqqallıqla yanaşı, xalqın, etnosun önündə duran, bir xalqın varlığının haradan başladığını işarə edən, təməl qoyan qurucular, dəyərli və müqəddəs şəxslərdir. Biz bu xüsusiyyətləri Oğuz xaqan-

dan, Ağsax atadan başlamış, Dədə Qorqudun, Xızırın hər birində cəm olduğunu görürük. Onların yaradıcı, elə-obaya yanaşma tərəflərini gördükdə, xalqı önə çəkib aparma xüsusiyyətlərinə, yardımsevərliklərinə baxdıqda çox asanlıqla hər birinin öz dövrü üçün xalqın atası statusunu qazandığına şahid olarıq.

Nəticə etibarı ilə məlum oldu ki, onları bir-birindən ayıran cəhətlərdən daha çox birləşdirən, yaxınlaşdıran xüsusiyyətlər vardır. Azərbaycan mifik təfəkküründə həkk olunmuş əcdad və mədəni qəhrəman funksiyasını yerinə yetirənlər nəslin, soyun yaradıcılarıdır. Bəzən tale müəyyənləşdirən Tanrı elçisidirlər.

– Sosiuma çətin anda yardım edib bəlalardan qurtaran müdrik və müqəddəs şəxsdirlər.

– Bəzən mədəni qəhrəman əcdad statusunu qazanmasa belə hər əcdad kultunun nümayəndəsi xalq üçün etdikləri yüksək ali əməlləri, müdrik davranışı ilə mədəni qəhrəmandır.

– Bütün əcdad kultunun törəmələri (Oğuz xaqan başda olmaqla) mədəni qəhrəmanlardır.

– Bütün mədəni qəhrəmanlar isə əcdad kultunu simvolizə etmir.

## Ədəbiyyat / *References*


1. Bəxtiyar Tuncay. Etnoqonik miflər. Ümumtürk materialları əsasında. Bakı: Nurlan, 2013, 308 səh.
2. Əbülqazi Bahadır xan. Şəcərei-Tərakimə (Türklərin soy kitabı. Bakı, Azərbaycan Milli Ensiklopediyası). Nəşriyyat-Poliqrafiya Birliyi, 2022, 144 səh.
3. Fərəcova A. "Kitabi-Dədə Qorqud"da qəhrəman və cəmiyyət. Bakı: Elm və təhsil, 2018, 200 səh.
4. Həbibbəyli İ. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007
5. Ögəl B. Türk mifologiyası. I c. Bakı: Səda, 2004, 626 səh.
6. Qasımova F. Türk mifologiyasında mədəni qəhrəman problemi. Bakı: Elm və təhsil, 2012, 164 səh.
7. Kübra Yıldız Altın. Türk kültüründe Atalar kültü.Türkiyə, Gazi Kitab evi. 573 səh.
8. Литературный энциклопедический словарь / Под общ. ред. В.М. Кожевникова и П.А. Николаева. М.: Совет. энциклопедия, 1987, 752 с., 223.
9. Moisey Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. Bakı: Avrasiya press, 2006, 296 səh. 1993, s. 21-26
10. Плетнева С.А. Кочевники Средневековья: Поиски ист. Закономерностей. М.: Наука, 1982, 188 с.141, с-21; 189
11. Мелетинский Е.М. Общее понятие мифа и мифологии / Мифологический словарь. Гл. ред. Е.М.Мелетинский. Москва: Советская энциклопедия, 1990, с. 660, с. 638
12. Токарев С.А. Ранние формы религии. М.: Политиздат, 1990, 622 с., с. 255, 261


## İnternet resursları


13. https://www.academia.edu/31312582/B%C9%99xtiyar_Tuncay_Etnoqonik_mifl%C9%99r (s-62)
14. http://www.nagillar.az/article/a-231.html
15. https://cdn.oyu.edu.az/ebooks/edebiyyathsunasliq/Kitabi%20Dede%20Qorqud.pdf
16. http://anl.az/down/meqale/adalet/2011/mart/161063.htm). Xalqımız
17. Daşdəmirova Ümüküs. 1915-1998, Zaqatala rayon Qımır kəndi
18. Mənbəsi göstərilməyən nümunələr şəxsi arxivimizdəndir.

**Проблема культурного героя в азербайджанском фольклоре (в контексте культа предков)**

**Зумруд Мансимова**

**Резюме:** В статье исследуются аспекты, которые связывают, сближают и отделяют культурного героя от культа предков. Здесь нашей главной целью является изучение моделей поведения культурных героев на основе первичного культа предков, их нормоопределяющей модели в культуре и систематическое ее исследование на материалах азербайджанского фольклора. Выявляются аспекты, идентифицирующие культурного героя с потомками культа Предков.
**Ключевые слова:** Культ предков, культурный герой, национальная ценность, Огуз хан, традиции.